**Rüfət İsayev**

# Yaz küləyi mən olaydım

Bakı 2013

© Nərgiz nəşriyyatı, 2013
Bütün hüquqlar qorunur.

Korrektor: ***Elza İsmayılova***
Kompüter işi: ***Sevil Rüstəmzadə***

Yaz küləyi mən olaydım, Rüfət İsayev, Bakı 2013, Nərgiz nəşriyyatı, 108 səh.

**ISBN 978-9952-8206-6-9**


علي

İçindəkilər

Hər kəsin öz yeri ................................................ 9
Allahım mənim ................................................ 10
Torpağa ibrətlə bax ......................................... 11
Ailə.................................................................. 12
Gecə şahzadəsi ................................................ 13
Şəbnəm ........................................................... 14
Kişinin daimi dostları ...................................... 16
Əzrailin söhbəti ................................................ 17
Payız ............................................................... 18
Kədər dənələri ................................................. 19
Qocalıq ............................................................ 20
Külək ............................................................... 21
Təbiətin gözəlliyi.............................................. 22
Bayrağım mənim ............................................. 23
Pulun hökmü.................................................... 24
Nəsihət............................................................. 25
Ey kasıb qohum ............................................... 26
Enişli-yoxuşlu dünya ....................................... 27
Ac və tox .......................................................... 28
Dağlarda yurd yeri ........................................... 29
Yağış ............................................................... 30
Telli ................................................................. 31
Süsənə məktub ................................................. 32
Axan çaylar...................................................... 33
Turanə ............................................................. 34

Uşağın sevinci....................................................35
Qayda...........................................................36
Sarı cücə.......................................................37
Ömür............................................................38
Sona xanıma məktub..............................................39
Arzu............................................................40
Bülbül səsi.....................................................41
Həyat yoldaşıma.................................................42
Tülkünün şahlığı................................................43
Xatirələr.......................................................44
Qəbiristanlıq...................................................46
Çinarə..........................................................47
Günel...........................................................49
Aslan...........................................................50
Qiymət və maaş..................................................52
Röya............................................................53
İsaxan..........................................................54
Ay..............................................................56
Leyli...........................................................57
Okan............................................................58
Ana.............................................................59
Tənhayam........................................................61
Təknə...........................................................62
Tale............................................................63
Satirik şeir....................................................64
Uşaqlıq.........................................................65
Nənəm...........................................................67
Ata.............................................................68

Güzgüdə əksim ................................................ 69
Ziyarət ............................................................ 70
Voleyboldan xatirələr ...................................... 71
Zəhra.............................................................. 73
Sevgilimə......................................................... 74
Meşəbəyi ......................................................... 75
Uşaq ................................................................ 76
Məktub ............................................................ 77

Klassik rus poeziyasından tərcümələr ........... 79

Mixail Lermontov ............................................ 81
У врат обители святой .................................... 82
Müqəddəs kilsənin önündə durub ................. 83

Serqey Yesenin ................................................ 85
Ты сказала, что Саади..................................... 86
Söylədin ki , şair Sədi ....................................... 87
Вот уж вечер.Роса ........................................... 88
Şeh düşübdü bax bu gecə, ................................ 89
Прощай, Баку! ................................................ 90
Əlvida, ey Bakı! ................................................ 91
До свиданья, друг мой, до свиданья. ......... 92
Salamat qal, dostum mənim, salamat,........... 93
Гой ты, Русь, моя родная .............................. 94
Ey doğma Rusiya, əzizim mənim,.................. 95

Aleksandr Blok....................................................97
О доблестях, о подвигах, о славе .................98
Parlayan rəsmini masa üstündə.......................99
Я звал тебя, но ты не оглянулась,..............100
Mən səni səslədim, dönmədin geri, ..............101

Aleksandr Puşkin............................................103
Я вас любил: любовь еще, быть может,....104
Sizi sevirdim, sevgi gə lə r yenə ...................105

## Hər kəsin öz yeri

Dünya həyatının ötəri zövqü
Bəşər övladına olubdu ölçü.
Tanrı dərgahına edəndə köçü
Bu fani dünyada qalır əməllər.

Məhşər meydanında əldə dəftəri,
Allahım verəcək hər kəsə əmri.
Əməlisalehin cənnətdi yeri,
Seçilir insanın hər bir əməli.

Rəbbinin özüdür əməli seçən,
Orda nə şərab var, nə də ki içən,
Nə böyük villalar, nə də göydələn.
Hər kəsə bir yer var –cənnət-cəhənnəm.

## Allahım mənim

O ulu Tanrıya şübhə edənlər,
Bilə-bilə haqqa yalan deyənlər,
Ömrü boyu bütə səcdə edənlər
Axirət günündən xəbərdar deyil.

İmanı qəlbində sabit bir kəsə,
Yox yerdən yaradar Allah istəsə.
Uymayın nə cinə, nə də iblisə,
Tüstüsüz bir oddan yaranıb onlar.

Kökü dərinlərdə olan bir ağac,
Nə qədər ucalsa Rəbbiyə möhtac.
Tanrıdır eyləyən  hər şeyə əlac,
O qüdrət sahibi Allahım mənim.

## Torpağa ibrətlə bax

Çox təvazökardır dünyada torpaq,
Nə qədər sirləri o qalaq – qalaq
Saxlayır özündə, sorsaq da soraq,
Bu qara torpağa sən ibrətlə bax!

Torpağın altında əbədi yatan
İnsanın sayını bilərmi insan?!
Sirrini açmayıb keçsə də zaman,
Bu qara torpağa sən ibrətlə bax!

İnsanın keçmişi, gələcəyidir,
Gələcək nəsilin xırman yeridir
Babamız həmişə belə deyibdir:
- Bu qara torpağa sən ibrətlə bax!

İnsanlar torpaqdan bir ibrət ala,
Nəsildən nəsilə o adət qala,
Həmişə hər yerdə yadına sala,
Bu qara torpağa sən ibrətlə bax!

## Ailə

Bir evdə bir dünya qurulsun gərək,
Sevinci, kədəri bir yerdə bölək.
Qəm – qüssə azalsın, qoysevinc artsın,
Bu xoşbəxt ailə mənimdir, deyək.

Eyni təbəssmü üzlərdə görsək,
Eyni döyünəcək hamı da ürək.
Hər iki dünyadan, bir dünya quraq,
Bu xoşbəxt ailə mənimdir, deyək.

Fərqli dünyalarda döyünən ürək
Masa arxasında həll olsun gərək.
Birləşək, bir olaq, bir yuva quraq,
Bu xoşbəxt ailə mənimdir, deyək.

Sevgi tellərini bağlayaq gerçək,
Mehriban, mənalı bir ömür sürək.
Həyatda çətinlik olsa da belə,
Bu xoşbəxt ailə mənimdir, deyək.

## Gecə şahzadəsi

Bilsən, necə həyalıdı,
Kişi görcək utanırdı.
Adı Gecə şahzadəsi,
İş yerimdə yaşayırdı.

Çox qəribə bir gül idi,
Hündür boylu, incə idi.
Kişiləri görən kimi
Boynun büküb, baş əyirdi.

Gündən-günə ucalırdı,
Ətrafına boylanırdı.
Bir gül açmaq istəsə də,
Kişilərdən utanırdı.

## Şəbnəm

Nazü gəmzələrin bəllidir mənə,
Yandırma qəlbimi, bir qulam sənə.
Nə qədər əzablar çəksəm də yenə,
Eşqinlə bu dünya cənnətdi mənə.

Mən eşqin qəmini çəkmirəm təzə,
Canım  xəstə düşüb, tor gəlib gözə.
Qəm çəkib, mey içib, dönsəm də közə,
Eşqinlə bu dünya cənnətdi mənə.

Əgər min can olsa canımda bu can,
Hamısını verərdim yolunda qurban.
Vüsalına həsrət qalsam da, inan,
Eşqinlə bu dünya cənnətdi mənə.

Balaca köksümə sığmayır dərdim,
O zülmət gecələr, olub həmdəmim.
Yenə də deyirəm, əziz Şəbnəmim,
Eşqinlə bu dünya cənnətdi mənə.

Nə ürək dayanır, nə damarda qan,
Göz yaşım sel olub, ey nazlı canan.
Bu nakam eşqimə etsən də divan,
Eşqinlə bu dünya cənnətdi mənə.

Səbrim qalmayıbdı, yoxdu qərarım,
Sənə insaf verə o ulu Tanrım.
Bir dəfə deyəsən "sevgili yarım",
Eşqinlə bu dünya cənnətdi mənə.

## Kişinin daimi dostları

Paradi kişinın birinci dostu,
Nə qədər çox olsa, o qədər xoşdu.
Bu fani dünyada etməzsən aman,
Xəcalət çəkməyə qoymaz heç zaman.

İkinci bir dostu arvaddır, inan,
Qədirbilən olsa, həm dərdə yanan.
Həmişə hər yerdə qayğına qalar,
Dünyadan köçəndə yanında olar.

Üçüncü dostu da övladdır, bilin,
Ömrümə bəzəkdir, arxadır deyin.
Yurduma, yuvama o işıq salar,
Adımı qaldırıb davamçım olar.

Dördüncü dostunu deyirəm sizə,
Bizim adımızdır, qoyulub bizə.
Yaxşılıq eyləyək, həyatda qalsın,
Elimiz, obamız yadına salsın.

## Əzrailin söhbəti

Dəryada bir gəmi batdığı zaman
Ömrümdə heç kəsə verməzdim aman.
Ana körpəsinə aman dilədi,
Əzrail Tanrıya belə söylədi.

- Bu dəfə nədənsə qəmləndi üzüm,
Sən özün bilirsən, doğrudur sözüm.
Əzrail olsam da, yenə qəmləndim,
Uşağı götürüb sahilə gəldim.

Bir dəfə mənim də bu üzüm gülüb,
Ölümə məhkumlar üzümü görüb.
Filan məmləkətdə zülümkar şahı
Tutmuşdu ətrafda millətin ahı.

Mən onun canını aldığım zaman
Sevincim aşmışdı həddini yaman.
Sonradan bilmişəm, ziyankar insan
Həmin uşaq imiş – gəmidə batan.

## Payız

Hər fəslin bir ləzzəti,
Payızın da xoş ətri var.
Bəzəyərək hər tərəfi
Xəzəllərdən xalça salar.

Bax saralıb yaşıl yarpaq,
El-obaya payız gəlir.
Soyuq külək qopardaraq
Küçələrə səpələyir.

Bulud gəlir lopa- lopa,
Hava yaman tez qaralır.
Ağaclardan qopa- qopa
Yarpaqlar da tam  azalır.

Qoca palıd yarıçılpaq,
Sərv ağacı yamyaşıldı.
Gəl payıza nəzər salaq,
Ğör necə də maraqlıdı!

## Kədər dənələri

Həyat çox şirindir, nəzər yetir sən,
Sevinci, kədəri dənələyin tən.
Sevinc çox olsa da, bilirəm ki mən,
Kədər dənələri ovuca sığmaz.

Xan olasan, şah olasan başda tac,
Neçə ölkələrdən alsan da xərac,
İnsan oğlu, bil, ölümə yox əlac,
Kədər dənələri ovuca sığmaz.

Həmişə həyatın, sənə xoş olsa,
Hərdən tərk eləyib, kədərin artsa,
Başının üstünü qəm-kədər alsa,
Kədər dənələri ovuca sığmaz.

Heç zaman həyatda lovğalıq etmə,
Demə ki, bu həyat gülüb üzümə.
Tanrıya xoş getməz, salar zülümə,
Kədər dənələri ovuca sıgmaz.

## Qocalıq

Yaş gəlib əllini keçəndə bildim,
Deyəsən, qocalıq minib çiynimə.
Hər ağrı-acını mən necə deyim,
Ağrılar olubdu həmdəmim mənim.

Ağrıdan kəsilir, inan, nəfəsim.
Gecə də, gündüz də sızlayır böyrək.
İncidir ürəyim, tökülüb dişim,
Mədə-bağırsaqdır ən böyük dərdim.

O cansağlığını, incə neməti,
Heyif ki, əllini keçəndə bildim.
Bu gözəl həyatın şirin ülfəti,
Alın yazısıymış insan qisməti.

## Külək

Yaz küləyi  mən olaydım,
Hər gün qoynuna dolaydım.
Sarmaşaydım ağ boynuna,
Qara zülfün oynadaydım.

Olmayaydı  heç bir dərdin,
Öpüşəydik şirin- şirin.
Alovlansın qoy qəlbimdə,
Sevgi dolu məhəbbətin.

Lap çatsada ömrüm  sona,
Yalvarardım Yaradana.
Ürəyimdə yanan eşqi
Qovuşdursun vüsalına.

## Təbiətin gözəlliyi

Bu qaranlıq gecələrdə
O gözəl ay süzə-süzə
Parlayırdı su üstündə,
Nur tökərək üstümüzə.

Çayın həzin zümzüməsi
Yayılmışdı dərələrə.
Layla dedi şən nəğməsi
Mürgüləyən təpələrə.

Ağacdələn, bülbül səsi
Uzaqlardan eşidildi.
Bostanların gözətçisi
Əldə çıraq gəzişirdi.

Çay yanında yarpız ətri
Yayılmışdı hər tərəfə.
Xatırlayıb o yerləri,
Mən gəzmişəm neçə dəfə.

## Bayrağım mənim

Odlar diyarıdı mənim vətənim,
Sevincdən çırpınır sinəmdə qəlbim.
Üçrəngli bayrağım dünyaya bəlli,
Ən uca bayraqdı bayrağım  mənim.

Hüsnünə baxmaqdan doymayır gözüm,
Üzündən öpməyə gəlmişəm özüm.
Vətən sevgisidi yandırıb-yaxan,
Dalğalan-dalğalan, qoy doysun gözüm.

Vətənin uğrunda neçə qəhrəman
Canından keçərək olublar qurban.
Ucalsın bayrağım, ucalsın islam,
Mən özüm olaram yolunda qurban.

## Pulun hökmü

Paradı hər zaman hər şeyə gərək,
Bax, adi bir duza möhtacdı xörək,
Parasız, ey insan, sən nəyə gərək.
Varlıya “buyurun, bəli” deyərlər,
Kasıba həmişə dəli deyərlər.

Əzəldən belədir dünyanın işi,
Qismətin bu imiş, ey kasıb kişi,
Hər yerdə insanlar edib vərdişi.
Varlıya “buyurun, bəli” deyərlər,
Kasıba həmişə dəli deyərlər.

Bir kasıb məclisdə kəlam söyləsə,
Heç kimə xoş gəlməz, verər səs-səsə.
İmkanlı dil açıb, söyləsə nəsə,
Varlıya “buyurun, bəli” deyərlər,
Kasıba həmişə dəli deyərlər.

## Nəsihət

Təkəbbür göstərib o bir Allaha,
Ey Adəm övladı, gəl etmə inad.
Yığdığın var-dövlət, nə də ki övlad
Qiyamət günündə eyləməz imdad.

Təkəbbür göstərmə hüzurunda dur,
O ulu Tanrının, o bir Allahın.
Haqqa yalan deyib danışanların,
Cəzasın verəcək Rəsul Allahım.

# Ey kasıb qohum

Gör nə cür zəmanə gəlib yetişdi,
Qohum da, qardaş da yad olub indi.
O isti ocaqlar, o xoş ünsiyyət
Görəsən, nə oldu, niyə dəyişdi?

Günahkar zamandır! Bəlkə də insan
Var-dövlət dalınca qaçır hər zaman.
Ay Allah, taleyin işinə bir bax,
Varlı xəbər tutmur kasıb qohumdan.

Biri “Cip”də gedir, biri “Porşe”də,
Kasıbda sürünür qan tər içində.
Belə yazılıbdı, yəqin, qisməti
Həmişə tərləsin torba belində.

Ey qohum, insana qismət olacaq
On arşın kəfəndir, bir arşın torpaq.
Kasıb da, varlı da köçüb dünyadan,
Tanrı dərgahında bir qul olacaq.

## Enişli-yoxuşlu dünya

Ey Adəm övladı, deyirəm, inan,
Həyatda bir dəfə yaşayır insan.
Bu fani dünyanın eniş-yoxuşu
Odur insanları qocaldıb yoran.

Onsuzda insanlar gəldi -gedərdi,
Kimlərə yazığı gələ bilərdi.
Əllini aşırdım, o hardan bilsin,
Artıbdı sinəmdə qocalıq dərdi.

Cavanlıq vaxtından yoxdur əlamət,
Enişi enmişəm çəkmədən minnət.
Özümü aldadıb deyə bilmərəm,
Yoxuşda çəkmirəm heç bir əziyət.

## Ac və tox

Gəl mən deyim, sən qulaq as,
Bu dünyada nə çoxdu ac.
Çoxu gəzir ac-yalavac,
Aclar olub toxa möhtac.

Toxlar qurur hər bir işi,
Gah güldürür, gah ağladır.
Aclar işdə qəpik alır,
Yavan çörək güclə tapır.

Ət demirəm, yağ demirəm,
Bu toxların vərdişidi.
Sən gördükcə yaz, ay Rüfət,
Bu, dünyanın gərdişidi.

## Dağlarda yurd yeri

İllər boyu o dağlarda
Məskunlaşıb, yurd salardıq.
Yay gələndə yaylaqlarda
Çadırları biz qurardıq.

Qoyun- quzu mələşərdi
Dağ döşündə səhər, axşam.
Cavanlar da sevişərdi
Axşamüstü yananda şam.

İndi, görən, kimə qaldı
Başı qarlı uca dağlar?
O dağlara yaraşıqdı
Yamaclarda göy bulaqlar.

Qayıdarmı, bilməm geri,
O şən həyat, bir də dağlar?!
Ağlayaraq o yurd yeri
Qaraxaçda hey haraylar.

## Yağış

Yağış yüklü boz buludlar
Yerə-göyə lərzə saldı.
Guruldayan ildırımlar
Uzaqlarda alovlandı.

Zülmət çökdü hər bir yana,
Buludlardan yağdı yağış.
Qara torpaq yana-yana
Buludlara etdi alqış.

Heç bir qüvvə çata bilməz
Təbiətdə olan gücə.
O qüvvəni görən dinməz,
Gündüz dönüb olsa gecə.

## Telli

Saz götürüb sən məclisə gələndə,
Valeh oldum belə gözəl görəndə.
Allah haqqı, sənin sazın dinəndə
Saz-sözündən doymaq olmur, a Telli,
Sən dur oxu, mən ağlayım, a Telli!

Telli sazı Telli alıb əlinə,
Güvənirdi məclislərdə səsinə.
Mahnı qoşdu neçə şair şəninə,
Heyran oldum saz-sözünə, a Telli,
Sən dur oxu, mən ağlayım, a Telli!

Elə bildim, röyadayam, halım yox,
Belə səsdən bu dünyada ola çox,
Axtarmayın, belələri yoxdu, yox.
Gah oxuyub, gah süzürsən , a Telli,
Sən dur oxu, mən ağlayım, a Telli!

Gördüyüm gerçəkdi, yada bir yuxu,
Unutmuşam dərdi, qəmi,  sən oxu,
Sənə çatmayacaq, bilirəm çoxu.
Xoş avazlı, şirin dilli, a Telli,
Sən dur oxu, mən ağlayım, a Telli!

## Süsənə məktub

Bir zaman “sevirəm” dediyin sözü,
Sən nə tez unutdun, Süsənim mənim?
O incə duyğunun kor oldu gözü,
Anlaya bilmədin sevgimi mənim.

Əcnəbi oğlanın qızıl qəfəsi
Aldadıb apardı vətəndən səni.
Sındırdın qəlbimdə o gözəl hissi,
Kaş xoşbəxt eyləsin Allahım sizi.

## Axan çaylar

Bu  bir sevgi dünyasıdır
Lay-lay duran sal qayalar.
Sanki yerin damarıdır
Zirvələrdən axan çaylar.

Neçə-neçə aşırımlar
Keçib aşdı bu dağ çayı.
Sal qayada o mamırlar
Damcılardan aldı payı.

Səmadandır, ya saflıqdan,
Mavi rəngdə axır bu çay?
Sallanaraq qayalardan
Ağ örpəkdə, donu lay-lay.

Bu qayanın düz qaşında
Qoşa durub sərv ağacı.
Küknarların arasında
Şux dayanıb sanki tacdı.

## Turanə

Sanki bir mələksən, ay qız Turanə,
Sən bir şam olubsan, mən də pərvanə.
Gözəlim, gəl mənə olma biganə,
Sevirəm mən səni, unutmaram heç,
Ay Allah, sən özün günahımdan keç.

Dərdindən olmuşam yamanca xəstə,
Sürünə-sürünə mən dizi üstə
Gələrəm ölməyə tər sinən üstə.
Sevirəm mən səni, unutmaram heç,
Ay Allah, sən özün günahımdan keç.

Qəlbimdə alışıb eşqimin şamı,
Mən səndən alıram eşqi, ilhamı.
Söylədim aləmə, qoy bılsin hamı,
Sevirəm mən səni, unutmaram heç,
Ay Allah, sən özün günahımdan keç.

## Uşağın sevinci

Atanın, ananın dalınca gedən
Balaca bir uşaq dayandı birdən.
Ağladı, sızladı „ getmirəm” dedi,
Ana qucağına minmək istədi.

Ata da, ana da danladı bir az,
Bu uşaq keçmədi fikirindən vaz.
Atası ağacdan bir çubuq kəsdi,
Gülərək oğluna belə söylədi:

-Bax sənə nə gözəl bir at gətirdim,
Mən onu zülümlə ağacdan kəsdim.
Uşaq sevinərək yerindən durdu,
Minərək atına bir çubuq vurdu.

Bax, budur həyatın çətinlikləri,
Yorulsan ya zehni,ya da fiziki,
Axtarsan, hər zaman nəsə taparsan,
Yetişib mənzilə sən də çatarsan.

## Qayda

Bilirəm qapıdır dünyanın səddi,
Qapını döyməyin olmalı həddi.
Bir kəsi çağırmaq istəsə əgər,
Qapını təkidlə tək nadan döyər.

Qapı açılanda çəkil bir yana,
Çiyninin üstündən baxma qadına,
İçəri buyursa, sən ləngi bir az,
Geyinsin əyninə bir paltar- palaz.

## Sarı cücə

Yumurtadan çıxan bir sarı cücə
Toyuğun qoynunda gizləndi tezcə.
Xoruzu göstərib: – O saqqallıdan
Qorxuram, anacan, qorxuram ondan.

O sənin atandı, gözləri mərcan,
Hər zaman qoruyar səni siçandan.
Bax onlar xalandır, onlar da bibin,
Durublar yanında məstan pişiyin.

Necə də məğrurdu, kişidi atam,
Böyüyüb atama mən oxşayacam.
Özüm çəkəcəyəm hər zaman keşik,
Yanımda duracaq o məstan pişik.

# Ömür

Yorulmazdım mən heç nədən,
Gün keçdikcə bu ömürdən.
Yaşa doldum, baş ağardı,
Bu gen dünya mənə dardı.

Nə yaxşı ki “Xəzər”vardı,
Gülər üzdü, mehribandı.
Həm rektoru, həm dekanı,
Yaddan çıxmaz İsaxanı.

Yoruluram mən şəhərdən,
Öz-özümə baxıb hərdən.
Dərd çəkmərəm mən heç nədən,
Qohum- qardaş çətən-çətən.

Görüşəndə yaddan çıxır,
Elə bil ki çaydı axır.
Hər bir dərdim, hər bir qəmim,
“Xəzər” olub mənim gəmim.

## Sona xanıma məktub

Bir ala göz gördüm titrədi ürək,
Söhbət də elədim, düzünü desək.
Gördüyüm yuxudu, yoxsa ki, gerçək,
Bilmədim bəndədi, ya da bir mələk?

Gözəllik gəlibdir ona Allahdan,
Gözəl xəlq eləyib onu Yaradan.
Dilək diləyirəm ulu Tanrıdan –
Bədnəzər dəyməsin ona heç zaman.

Yuxumda görürəm onu hər gecə,
Qaş gözə yaraşır, bədəni incə.
Röyanı gördüyüm həmin o gecə
Uçurdum göylərdə, bilmirəm necə?

Bircə gecə yuxularım çin ola,
Tər qönçədir nə sarala, nə sola.
Yorulmazdım gedə-gedə qol-qola
Ömrüm boyu Röyam ilə, ay Sona.

## Arzu

Yavaş-yavaş doldum  yaşa,
Ömrü vurdum mən də başa.
Qardaşlarım qoşa-qoşa,
Hər birisi bir tamaşa.

Bu, arzudur, yoxsa son söz?
Könül deyir: “Hələ sən döz”.
Bu həyatdan doyarmı göz,
Yana-yana olsan da köz?

## Bülbül səsi

Xan bağının düz önündə
Qoşa durub xan çinarı.
Qızılgüllər dövrəsində
Qarşılayır qonaqları.

Bu bağçada bülbül səsi
Diqqətimi cəlb elədi.
Oxuduğu şən nəğməsi
Sanki "dayan, dinlə" dedi.

Dinlədikcə mən bu səsi
Yağdı yağış, yer nəmləndi.
Bülbüllərin cəh-cəh səsi...
Elə bil ki  nur ələndi.

## Həyat yoldaşıma

Mənim könül dostum, əziz sevgilim,
Deyəsən, xətrinə dəymişəm sənin.
Elə durub baxma, yandırma qəlbim,
Bağışla sən məni, gözəl mələyim.

Hər şeydən inciyib, küsənim mənim,
Bu gün ad günündür, təbrik edirəm.
O ulu Tanrıdan dilək dilədim –
Qoynunda saxlasın qoy səni Rəbbim.

## Tülkünün şahlığı

Cəngəlliklər şahı bir igid aslan
Əsl bir şah kimi sürürdü dövran.
Ay keçdi, il keçdi, köçdü dünyadan,
Tülkü taxta çıxdı həmin gün, inan.

Pələngin, ayının, bir də leyləyin
Zəncirlə bağlatdı iki biləyin.
Pələngə söylədi: – O gözəl dərin
Yaxşı qiymətədir, olacaq mənim.

Deyəsən, artıbdır ayının pulu,
Yeyib-kökəlibdir o qarınqulu.
Qaranlıq zindana tez salın onu,
Qoy bilsin, necədi həyatın sonu.

Leyləyin qazancı, nədəndir, görən,
Hər il xaricdədir, öyrəndim dünən.
Soyuqlar düşəntək uçacaq həmən,
Asın boğazından, qoy görsün aləm.

## Xatirələr

Hər ikimiz uşaq idik,
Ağrı-acı bilməyirdik.
Biz adətə çevirmişdik
Göy çəməndən gül dərməyi.

Ağ güllərdən hörüb papaq,
Toplayardıq qucaq-qucaq.
Kim qaçacaq, kim tutacaq,
Ötüşərdik evə sarı.

Dəli dağdan əsən mehdən,
Ot üstünə düşən şehdən,
Şən qayğısız bir ömürdən
Yada düşüb xatirələr.

Şeh üstündə ayaqyalın
Ağlağanın, Dəli dağın,
Doloylarda hər bulağın
Biz gəzmişik qarış-qarış.

Dağ döşündə üç ay yayı,
Ömrümüzdən gedən payı.
O günlərin varmı tayı,
Sən, ey mənim tacıdarım?

## Qəbiristanlıq

Bu torpaqda uyuyubdur
Neçə igid, neçə ərən.
Bu dünyanın sonu budur,
Əl götürün pis əməldən.

Bir ətrafa nəzər yetir,
Gör nə qədər qara daş var.
Can odudur,böyük dərddir
Başdaşında bu yazılar.

Bura Tanrı dərgahıdır,
Sorğu sual ediləcək.
Yaxşı, yaman, ya haramdır,
Bundan sonra bilinəcək.

## Çinarə

Heyran oldum bir gözələ,
Vurulmuşam o gözlərə.
Ürəyimə saldın yarə,
Görən, varmı buna çarə?

Bu sözləri mən deyirəm,
Başqasını neyləyirəm,
Təkcə səni istəyirəm,
Gəl, ey mələk, ay Çinarə!

Naz -qəmzəli yerişindən,
Dodaqaltı gülüşündən,
Sevgi dolu qaş-gözündən
Xoşhal oldum, ay Çinarə!

Görməyəndə səni gözüm,
Daha qalmır məndə dözüm.
Deyiləsi çoxdu sözüm
Sənə mənim, ay Çinarə!

Yaranıbsan sən bir mələk,
Dilə gəldi məndə ürək.
Bax beləcə bir məhəbbət
Yaşayıram  mən də gerçək!

# Günel

Bir mələk görmüşəm dünən hicablı,
Tovuz maralıdı, Güneldi adı.
Sən mənə göndərsən ümiddən payı,
Şükürlər eylərəm, ey gözəl tanrı!

O ilk məhəbbətim düşmüşdü yada
Duyğular içində, fani dünyada.
Uçurdum göylərdə, uçurdum tənha,
Bəlkə, yatmış bəxtim yenə oyana.

# Aslan

Böyük savannada bir ana aslan
Tayfadan ayrılıb tək qaldı tamam.
Heyvanlar içində edərək fəğan,
Ov edib yaşadı, xeyli bir zaman.

Ətrafa boylanıb, baxırdı aslan,
Gözünə sataşdı bir sürü ceyran.
Sürünün içində təzə doğulan
Bir ceyran balası qaçırdı yaman.

Balaca ceyranı görəndən bəri
Artıbdı aslanın dərdi, kədəri.
Sürünə-sürünə gəlib irəli,
Ceyran balasına baxırdı qəmli.

O ana aslanın analıq hissi
Oyatdı aslanda bala həvəsi.
Balaca ceyrana bir ana kimi,
Ana məhəbbəti vermək istədi.

Qəmlidir ana şir bu gun səhərdən,
Heç zaman verməzdi fürsəti əldən.
Pusqudan çıxaraq, atıldı birdən
Balaca ceyranın tutdu belindən.

Ağır pəncəsini qoyub üstünə,
Bir xeyli gözlədi, gəlsin özünə.
Zavallı ceyranı atıb belinə,
Apardı meşənin dərinliyinə.

Onlar bir neçə gün meşəni gəzdi,
Acından ceyranın dizləri əsdi.
Otu qopartdısa, yeyə bilmədi,
Dizləri əsdikcə bədən titrədi.

Şirin də taqəti, yox idi, inan,
Uzanıb ceyrana baxdığı zaman
Arxadan çıxaraq böyük bir aslan,
Didib-parçaladı ceyranı tamam.

## Qiymət və maaş

Qiymətlər minərək bir kəhər ata
Çapırdı irəli, bilmirəm hara?
Maaşın payına düşən tısbağa
Kəhər at dalınca gedirdi yorğa.

“Dayan, kəsək, –dedi, –haqqı-hesabı”.
Qiymətlər qalmadı onunla razı.
Sən dalda qalıbsan, olubsan naşı,
Kosmosa gedirəm, qoy bilsin hamı.

## Röya

Enişli-yoxuşlu həyat yolunda
Eşqimi söyləyib, etmədim bəyan.
Xəyalla yaşadım xeyli bir zaman,
Könlümün sevgili Röyama qurban.

Yandırır həsrətin, artıbdı qəmim,
Ölməzdim, eşitsəm şirin sözlərin.
Gördüyüm dünyalar içində mənim
Ən gözəl dünyadır sənin gözlərin.

Bu gözlər yamanca yandırıb-yaxıb,
Məhəbbət eşqinə salıbdı məni.
Elə bil şimşəkdi, qəlbimdə çaxıb,
Unuda bilmirəm heç zaman səni.

## İsaxan

Çalıb-çapıb talayırdı hər tərəfdən var-dövləti,
Mənimsəyib toplayırdı Beriyanın hökuməti.

Bəyi, xanı qırmaq üçün hazır idi rus qoşunu
İsaxana xoş gəlmədi Beriyanın bu oyunu.

Qarayazı meşəsini eyləyərək sığınacaq
Söylədi ki, bu palıdlar, igidləri qoruyacaq

Beriyanın ordusunu lap yaxına buraxaraq
Əmr eylədi igidlərə, güllələri yağdıraraq.

Qırırdılar Beriyanın vəhşiləşən ordusunu,
Öz başında çartlatdılar Beriyanın arzusunu.

Palıdlını bürümüşdü top- tüfəngin gurultusu,
Nalə çəkib, fəryad etdi qırılaraq rus ordusu.

Vaqon-vaqon daşınırdı, əsgərlərin meyitləri,
Mühasirədə qalmışdı İsaxanın  igidləri.

Çıxmaq üçün bu döyüşdən işlətdilər bir hiyləni,
Altdan- üstən geyindilər əsgərlərin köynəyini.

Yara-yara düz keçdilər vəhşiləşən bu ordunu,
Qəhrəmandı hər bir igid, bilməzdilər heç qorxunu.

Söylədim mən bircə döyüş, deməmişəm neçəsini,
Hər döyüşdə qırırdılar  neçə-neçə əsgərini.

Bildilər ki, bacarmazdı igidlərlə rus əsgəri,
Müqavilə təklif edib dayandırdı döyüşləri.

Müqavilə şərtlərinin bəyəndilər bəzisini,
Məsləhətlə imzalayıb, oxudular hər birini.

“İsaxan təyin olunsun milislərin komandiri,
Qaçaqlarla indən belə heç bir kəsin yoxdur işi”.

Qara fikirlər almışdı Beriyanın dincliyini,
Adam qoyub izlədirdi İsaxanın hər işini.

Şərə salıb kənd içində, güllələtdi bəzisini,
Sibirlərə sürgün etdi insanların neçəsini.

## Ay

Yerə baxıb gülə-gülə,
Ulduzlar da gəldı dilə.
Göy səmada o gözəl ay
Vurulmuşdu qızılgülə.

Ağcaqayın, iydə, çinar
Düzülübdü qatar- qatar.
Xan çinara baş da əydi
Bar-bəhrəli o gilənar.

Bu dərədə axan çaya
Kölgə saldı o sal qaya.
Dağ döşündən sallanaraq,
Boylanırdı gözəl aya.

## Leyli

Bir ceyran yerişli, ülkər baxışlı
Leyliyə salmışdım meylimi, Tanrı!
Nə sevgim dayandı, nə Leyli qandı,
Bu sevgim qəlbimdə alışıb-yandı.

Bilmirəm, ağıllı, yoxsa dəliyəm,
Əzizim, yenə də səni sevirəm.
Sevirəm mən səni bir Məcnun kimi,
Bu sevgim ötübdü Əsli-Kərəmi.

Bax bu cür məhəbbət çəkərmi qəmi?
Tərpənib qəlbimdə eşqimin simi.
Ay Allah, sən özün artır səbrimi,
Bəlkə, işə saldım şirin dilimi.

Yadıma düşdükcə isti nəfəsin
Titrəyir ürəyim, kəsilir səsim.
Belə bir məhəbbət yaşayan kəsin
Dilinə gələrmi bəsimdir, bəsim?

## Okan

Görərdilər hər bir işi
Muştuluqla , Şahin kişi.
Həm atanın, həm ananın,
Cavid, Sinan və Okanın –
Hamısının gözü aydın.

Hər bir ata, hər bir ana
Çatmaq üçün arzusuna
Sünnət edir balasına.
Müsəlmanda bu adətdir,
Ata, ana çox xoşbəxtdir.

Hər millətin öz adəti,
Mən çəkirəm əziyyəti.
Sevindirdim mən nənəmi,
Çağır bacım Fəridəni,
Müsəlmanam mən, ay əmi!

## Ana

Meriban, qayğıkeş bir gözəl ana,
Sübhətək laylalar çalıb ogluna,
Ömrünü, gününü bağladı ona.
Yalvara-yalvara o bir Allaha,
Böyütdü oğlunu, böyütdü tənha.

Artıq nənə idi o gözəl ana,
Getmişdi cavanlıq nə fayda ona.
Deyəsən, ömrünü vururdu sona.
Əsirdi əlləri, görmürdü gözü,
O evdə keçmirdi ananın sözü.

Masa arxasında oturan zaman
Qab-qacaq sınmışdı, halı pərişan,
Bilmirdi, neyləsin o yazıq insan.
Kəsmişdi əlini, axırdı qanı,
Tələsik axtardı sınan boşqabı.

Yerindən duraraq tutub əlindən,
Oturtdu övladı ananı yerdən.
Bir taxta boşqabda bir az xörəkdən
Ana qabağına qoydular, inan,
Gör necə alçaltdı ananı oğlan.

Günlərin bir günü balaca nəvə
Bir neçə taxtanı gətirdi evə.
O  taxta nə lazım, gətirdin niyə?
Nənəmtək qocalıb, əlin əsəndə
Boşqab düzəldəcəm, ay ata, mən də.

O gündən atanın gözləri doldu,
Fikirlər götürdü ,qəhəri boğdu,
Nəhayət, ananı başda oturtdu.
Bilin ki, ananı başda oturdan
Allahın özüdür, bizi yaradan.

## Tənhayam

Enişli-yoxuşlu həyat yolunda
Kimsəsiz deyiləm, tənhayam ancaq.
Sultan Suleymana qalmayan dünya
Görəsən, ay Allah, kimə qalacaq?
Tavalar qaynadı, dəmləndi aşım,
Ad günü gəlmədi qohum, qardaşım.
Gəl sənə söyləyim, həyat yoldaşım,
Kimsəsiz deyiləm, tənhayam ancaq.
Sultan Suleymana qalmayan dünya
Görəsən, axırda kimə qalacaq?

## Təknə

Oğuz eli Türkiyədə,
Boğaz içi, Mərmərədə
Üzürdülər bir təknədə
Şahin, Rüfət və Əlövsət.

Bir-biriylə edib söhbət,
Çox gözəldir bu məmləkət.
Bəxtəvərdir burda millət,
Bir millətik biz, ay Rüfət!

Çəllək-çəllək pivəsindən,
İçib doyub nəşəsindən.
İspan qızın süzməsindən
Xoşhal olduq biz, ay Rüfət!

Birol bəyin gəmisindən,
Arkadaşlar dövrəsindən,
İstanbulun gecəsindən
Ləzzət aldıq biz, ay Rüfət!

## Tale

Belə yazılıbmış taledən qismət,
Enişli-yoxuşlu həyatda Rüfət
Möhnəti götürüb, çəkmədi minnət,
Çörək bala dönər, çəksəm əziyyət.

Fəsillər dəyişib, yağanda yağış
Kiməsə bahardır, kiməsə bir qış.
Həyatda az adam qazanır alqış,
Yaxşılıq etməyə sən də dur, alış.

## Satirik şeir

İşgüzar olursan müdir görəndə,
Deyinə-deyinə dəftər əlində
Hərdən danışırsan əcnəbi dildə.
Arabir sürmə də çəkirsən qaşa,
Kişisən, kişi ol, kişitək yaşa.

Ayaqlar altında olubsan keçə,
Dünən cücə idin, bu gün də beçə,
Az-çox hörmətini döndərdin heçə.
Çanta daşıyırsan, keçəsən başa,
Kişisən, kişi ol, kişitək yaşa.

Hünərdən, qeyrətdən varsa xəbərin,
Sözünlə düz gələ gərək əməlin,
Dişini az göstər, fikirləş dərin.
Vəziyyət dəyişib, keçibsən başa,
Kişisən, kişi ol, kişitək yaşa.

## Uşaqlıq

Uşaq idim anlamırdım,
Şən, qayğısız böyüyürdüm –
Əmi yanda, bibi yanda,
Gah aranda, gah da dağda.

Olar-olmaz yeddi yaşım,
Dəcəllikdən mən savaşdım.
Savaşdığım o uşaqdan
Yetimliyi mən anladım.

“Yetim” sözü eşidəndə
Titrəyirdim mən yerimdə.
Tutulmuşdu əl-ayağım,
Qəhər boğdu, mən ağladım.

Az olsa da yaşım mənim,
Bilirdim ki, başım mənim
Çəkəcəkdir çox bəlalar,
Xatalardan məni qurtar.

Qaynayırdım, qarışırdım,
Taleyimlə barışırdım.
Yeni-yeni alışırdım
Təkcə qalan əmimə mən.

Fələk vurdu təzə yara,
Əmim düşdü qəzalara.
Niyə bəxtim oldu qara,
Urəyimə vurdu yara?

Nə istəyir bizdən fələk,
Bizə qurub neçə kələk?
Belə dərdə dözsə ürək,
Ürək deyil, daşdır, gerçək.

## Nənəm

Hərdən-hərdən nənəm mənə danışırdı,
Xoşbəxt idik, yaxşı günlər yaşanırdı.

Yay olanda biz köçürdük yaylaqlara,
Qururdular çadırları sıra-sıra.

Dağ döşündə şən qayğısız biz, ay bala,
Gün keçirdik, ömür sürdük İsaxanla.

Xatırlayıb o günləri mənim nənəm,
Qımqıma da oxuyurdu hərdən-hərdən.

İsaxan gəlməz hər kişinin belindən,
Ayrı düşdü o, vətənindən elindən.

Göz dikmişdi var dövlətə yağı düşmən,
Xata gəldi babaniza ermənidən.

## Ata

Çox tez eşitmişdi Əzrail səsi,
Budurmu həyatın son nəticəsi?
Nə ana laylası, nə ata səsi,
Almadım onlardan isti nəfəsi.

Sənsən bu dünyada mənim həyatım,
Dərd çəkməkdən üzülübdü lap canım.
Uçurdu göylərdə hərdən xəyalım,
Qayıt nağıllardan, qayıt, ağ atlım!

## Güzgüdə əksim

Güzgüdə görəndə mən öz əksimi
Ağlasam ağlayır, güləndə gülür.
Üzümə baxanda qəlbimi görür,
Sevinci, kədəri mənimlə bölür.

Əkiz qardaş olub öz əksim mənə,
Hər səhər güzgüdə görüşürük biz.
Eyni cür döyünür bizim qəlbimiz,
Bu yaşa bir yerdə çatdıq ikimiz.

Mən gəlsi-gedərəm, güzgü əbədi,
Güzgüyə bir zaman ruhum baxacaq.
Cansız cəsədimdən çıxıb uçacaq,
O mənsiz dünyada, mənsiz qalacaq.

## Ziyarət

Mən görmüşəm Qaraxaçda,
Hacı Xəlil ocağında
Həm ziyarət, həm ticarət
Eyləyirdi bizim millət.

Qaraisəli, İlməzdi,
Qalağala, Cücə kəndi,
Həm mollası, həm şəyirdi
Cümə günü tələsirdi.

Deyinləri qəbul olan
Kəsirdilər qoçu qurban.
Bax beləcə çox mehriban
Yaşayırdıq biz o zaman.

Dədə-baba yurdumuzdan,
Ziyarətdən, o ocaqdan,
Soyuq-soyuq bulaqlardan,
Xəbərimiz yoxdu çoxdan.

## Voleyboldan xatirələr

Hər həftənin şənbə günü
Yığışırıq voleybola.
Seçənlərin arasında
Hörmət vardı vuran qola.

Hər tərəfdə bir qoçu var,
Biri Şahin, biri Oqtay.
Rasim olub onlara tay,
Meydançada salır haray.

Oqtaydakı həvəsə bax,
Gör necə də əsib-coşur.
Əyri vurur, hey danışır,
Ceyhun, Turan çaş-baş qalır.

Çox az olur topa hücum,
Qocalıbsan sən, ay Rüfət.
Bu, nə vuruş, yoxmu qüvvət?
İsaxan da etdi minnət.

Sərrast vurur Əfqan əmi,
Hərdən düşmür meydançaya.
Bəzən deyir, alma saya,
Səbəb olur hay-haraya.

İsaxandan öyrənibdi
Çox şeyləri bizim Maqbet.
Zəif yerə top təslim et,
Yorulmayıb hələ Hamlet.

Şər qarışdı, axşam oldu,
Belə keçdi bu günümüz.
Yığışdıqca hər həftə biz,
Bu cür keçir hər şənbəmiz.

## Zəhra

Ad günün mübarək, a Zəhra bala,
Təbrikə gəlibdi qohum-əqrəba.
Həyatda xoşbəxt ol, görüm min yaşa,
Ruslanla, Aynur da qarısın qoşa.

Yüzü təbrik etsin, fərqi yox sənə,
Gözlərin axtarır nənəni yenə.
Uzaqda deyildir Həqiqət nənə,
Ovcunda hədiyyə gətirir sənə.

Bax necə sevinir o Nazim baba,
Ulduzdan pay verər, sən desən ona.
Nəzakət masanı düzüb yan-yana,
Badə cingiltisi çatıb Dilmana.

Sən xöşbəxt olasan, a Zəhra balam,
Səni sevə-sevə yaşayır baban.
Arzusu, diləyi ulu Tanrıdan,
Həyatda olasan bir gözəl insan.

## Sevgiliмə

Ala gözə çəkmə sürmə,
Mən heyranam o gözlərə.

Bu sözləri sevgilimə
Mən demişəm neçə kərə.

Tale verib qiymətini,
Çox istəyir, yəqin, səni.

Ulu Tanrı özü bizə
Göndəribdi gözəl nəvə.

Lalə, Rəsul, bir də Aişə...
Mən onlardan aldım nəşə.

Hərdən baxıb o keçmişə,
Bu sözləri sən həmişə

Qulağında sırğa eylə,
Sevgilinə belə söylə:

–Tale verib qiymətini,
Çox istəyir, yəqin, səni.

## Meşəbəyi

Bulaq üstə meşəbəyi
Bilsə belə hər kələyi,
Vurulmuşdu bir gözələ,
Çox çətin ki iş düzələ.

Göndərmişdi elçiləri,
Almadılar heç içəri.
Qaytardılar kor-peşiman,
Pərişandı bizim oğlan.

Getməyirəm hələ ərə,
Qız gəlmişdi düz şəhərə.
Kaş "Xəzər"ə qəbul olam,
Gör nələrə nail ollam.

Eşitmişdi bu kələyi
Aslan adlı meşəbəyi.
Düz həmin gün, həmin andan
Şəhərlidir bizim Aslan.

## Uşaq

Ağca qızın nənəsi,
Yaşıl don alıb gəldi.
Üstü dolu quş idi,
Ağcanın xoşu gəldi.

Tez-tez baxıb quşlara,
Sevinirdi yamanca.
Uçub qonar ağaca,
Söyləyirdi balaca.

Ağca qızın sevinci
Hamını sevindirdi.
Hələ ki getməmişdi,
Donun üstündə idi.

## Məktub

Yenə o döngələr, o qumlu sahil...
Gözləyir yolunu, əzizim mənim.
Dözməyir ürəyim, ötürəm dil-dil,
Dayanmır göz yaşım, sızlayır qəlbim.

Getdiyin o gündən qalmayıb dözüm,
Vallah, öldürəcək həsrətin məni.
Titrəyir əllərim, kor olub gözüm,
Röyamda görürəm hər gecə səni.

# Klassik rus poeziyasından tərcümələr



# Mixail Lermontov
# (1814-1841)

**У врат обители святой**
Стоял просящий подаянья
Бедняк иссохший, чуть живой
От глада, жажды и страданья.

Куска лишь хлеба он просил,
И взор являл живую муку
И кто-то камень положил
В его протянутую руку.

Так я молил твоей любви
С слезами горкими, с тоскою;
Так чувства лучшие мои
Обмануты навек тобою!

**Müqəddəs kilsənin önündə durub**
Sədəqə yığırdı xəstə dilənçi.
Xəstəlik üzübdü, bədən quruyub,
Ayaqlar üstündə boynunu burub.

Yanından keçərək dəcəlin biri
Bir daş parçasını ovcuna qoydu.
Əzab-əziyyəti, dərdi-kədəri,
Bir tikə çörəkdi onun istəyi.

Bir zaman beləcə, dilənçi kimi
Mən səndən istədim sənin eşqini.
Anlaya bilməyib o saf sevgimi,
Əbədi södürdün yanan qəlbimi!



Sergey Yesenin
(1895-1925)

**Ты сказала, что Саади**
Целовал лишь только в грудь.
Подожди ты, бога ради,
Обучусь когда-нибудь!

Ты пропела:” За Ефратом
Розы лучше смертных дев”.
Если был бы я богатым
То другой сложил напев.

Я б порезал розы эти,
Ведь одна отрада мне-
Чтобы не было на свете
Лучше милой Шагане.

И не мучь меня заветом,
У меня заветов нет.
Коль родился я поэтом,
То целуюсь, как поет.

**Söylədin ki , şair Sədi**
Öpdüyü yer tək sinədir.
Allah xətri, gözlə məni,
Öyrənərəm öpüş nədir!

“Fərat çayın o üzündə
Qız tay olmaz qızıl gülə”–
Oxuduğun bu nəğməni
Mən deyərdim başqa cürə.

İmkanlarım olsa əgər,
Qızıl gülü yox edərdim.
Şahanədən qeyri gözəl
Görmək belə, istəməzdim.

Sən bu şair ürəyimi
Daha üzmə adətinlə.
Mən bilirəm adətimi,
Öpüşürəm şair kimi.

**Вот уж вечер.Роса**
Блестит на крапиве.
Я стою у дороги,
Прислонившись к иве.

От луны свет большой
Прямо на нашу крышу.
Где-то песень соловья
В далеке я слышу.

Хорошо и тепло,
Как зимой у печки.
И березы стоят,
Как большие свечки.

И вдали за рекой,
Видно за опушкой,
Сонный сторож стучит
Мертвой колотушкой.

**Şeh düşübdü bax bu gecə,**
Parıldayır gicitikən.
Söykənərək bir söyüdə,
Dayanmışam yol üstə mən.

Ayın füsunkar nəfəsi
Bizim evin üstə idi.
Bülbüllərin şən nəğməsi
Uzaqlardan eşidildi.

Nə gözəldi, nə istidi
Qışda soba yanı kimi.
Ağcaqayınlar düzülüb
Bir şamdanın şamı kimi.

O meşənin düz önündə
Görünürdü bir gözətçi.
Toxmağını vurub yerə,
Səs salırdı yerə-göyə.

## Прощай, Баку!

Прощай, Баку! Тебя я не увижу.
Теперь в душе печаль, теперь в душе испуг.
И сердце под рукой теперь, больней и ближе,
И чувствую сильней простое слово: друг.

Прощай, Баку! Синь тюркская, прощай!
Хладеет кровь, ослабевают силы.
Но донесу, как счастье, до могилы
И волны Каспия, и балаханский май.

Прощай Баку! Прощай, как песнь простая!
В последний раз я друга обниму...
Чтобы голова его, как роза золотая,
Кивала нежно мне в сиреневом дыму.

## Əlvida, ey Bakı!

Əlvida, ey Bakı! Ayrılım gərək
Kədərdi, qorxudu qəlbimdə mənim.
Ayrılıq dərdindən sızlayır ürək,
İndi dost sözünün gücünü bildim.

Əlvida, ey Bakı! Türkün səması!
Donur qanım, azalır gücüm indi.
Məzara aparram özümlə sizi –
Balaxanı mayı, Xəzər dalğası.

Əlvida, Bakı! Həzin nəğmə kimi,
Dostum, qucaqlayım son dəfə səni.
Yellə sən başını qızılgül təki,
Yasəməni çəndə yola sal məni.

**До свиданья, друг мой, до свиданья.**
Милый мой, ты у меня в груди.
Предназначенное расставанье
Обещает встречу впереди

До свиданья, друг мой, без руки, без слова,
Не грусти и не печаль бровей,-
В этой жизни умирать не ново,
Но и жить, конечно, не новей.

**Salamat qal, dostum mənim, salamat,**
Əzizimsən, qəlbimdəsən mənim sən,
Ayrılmaq vədəsi, bugünkü həyat
Vəd eləyir, görüşərik yenidən.

Salamat qal, nə görüş, nə əl verək,
Qaşın çatıb, kədərlənmə, qəmi sil.
Yenilik deyildir həyatda ölmək,
Yaşamaq özü də yeni şey deyil.

**Гой ты, Русь, моя родная**
Хаты – в ризах образа...
Не видать конца и края-
Только синь сосет глаза.

Как захожий богомолец,
Я смотрю твои поля.
А у низенких околиц
Звонно чахнут тополя.

Пахнет яблоком и медом
По церквам твой короткий спас.
И гудит за корогодом
На лугах веселый пляс.

Побегу по мятой стежке
На привол зеленных лех,
Мне на встречу, как сережки
Прозвенит девичий смех.

Если крикнет рать святая:
« Кинь ты Русь, живи в раю!»
Я скажу: «Не надо рая,
Дайте родину мою.»

**Ey doğma Rusiya, əzizim mənim,**
Ucsuz-bucaqsızdır yaşıl çöllərin.
Mavi səmalardan doymur gözlərim,
Zərxara bənzəyir sənin evlərin.

Baxıram o yaşıl çölə, çəmənə
Ziyarət evinə gələnlər təki.
Ağcaqovaqlar da baxın dərədə,
Necə də səs salır, çağırır sanki.

Bu bayram günündə kilsəni yenə
Bürüyüb almanın, balın ətiri.
Bir sevinc yaydılar çölə, çəmənə,
Xorla oxuyaraq  şən nəğmələri.

Qaçdıqca əzilmiş otlar üstündə,
Meşə ətrafında çəmənlikdə mən
Qızları görürəm gülüş içində,
Səsləri sırğatək cingildər hərdən.

Hayqırıb səsləsə müqəddəs qüvvə,
Sən at Rusiyanı, cənnətdə yaşa.
Deyərəm, vətənim cənnətdi mənə,
Vətəndə vuraram ömrümü başa.



Aleksandr Blok
(1880-1921)

**О доблестях, о подвигах, о славе**
Я забывал на горестной земле,
Когда твое лицо в простой оправе
Перед мной сияло на столе.

Но час настал, и ты ушла из дому.
Я бросил в ночь заветное кольцо.
Ты отдала свою судьбу другому,
И я забыл прекрасное лицо.

Летели дни, крутясь проклятым роем...
Вино и страсть терзали жизнь мою...
И вспомнил я тебя пред аналоем,
И звал тебя, как молодость свою...

**Parlayan rəsmini masa üstündə**
Sadə çərçivədə gördüyüm anda
İgidlik şöhrəti, hətta şanı da
Unudurdum sanki fani dünyada.

Ancaq vaxtı çatdı, sən getdin evdən,
Atdım üzüyünü həmin gecədən.
Döndərdim üzümü, gözəlim, səndən,
Başqa bir kəs ilə olmuşdun həmdəm.

Acı xatirə ilə keçirdi günüm,
Şərab və ehtiras verirdi zülüm.
Müqəddəs kitabın önündə, gülüm,
Səslədim mən səni gəncliyim təki!

**Я звал тебя, но ты не оглянулась,**
Я слезы лил, но ты не снизошла.
Ты в синий плащ печально завернулась,
В сырую ночь ты из дому ушла.

Не знаю, где приют твоей гордыне
Ты, милая, ты, нежная, нашла...
Я крепко сплю, мне снится плащ твой синий,
В котором ты в сырую ночь ушла...

Уж не мечтать о нежности, о славе,
Все миновалось, молодость прошла!
Твое лицо в его простой оправе
Своей рукой убрал я со стола.

**Mən səni səslədim, dönmədin geri,**
Göz yaşı axıtdım, insafsız pəri.
Göy plaşa bürünüb, üzdə kədəri
Bir soyuq gecədə tərk etdin məni.

Heç bilmirəm, mənim məgrur gözəlim,
Kimə sığınıbsan, arzum-diləyim?
Daş kimi yatsam da, gözəl mələyim,
Göy plaşda görürəm hər gecə səni...

Getmişdi cavanlıq, getmişdi şöhrət,
Cavanlıq vaxtından yoxdur əlamət.
Masanın üstündən atdım, nəhayət,
Sadə çərçivəli parlayan rəsmi.



# Aleksandr Puşkin
# (1799-1837)

**Я вас любил: любовь еще, быть может,**
В Душе моей угасла не совсем;
Но пусть она вас болше не тревожит;
Я не хочу печалить вас ничем.

Я вас любил безмолвно, безнадежно,
То робостью, то ревностью томим;
Я вас любил так искренно, так нежно,
Как дай вам бог любимой быть другим

**Sizi sevirdim, sevgi gələr yenə,**
Sönməyib sevgimin atəşi hələ.
Bu sevgim narahat etməsin deyə,
Vermərəm əziyyət mən indən belə.

O saf məhəbbətim, o incə sevgim
Qısqanclıq içində üzürdü məni.
Ümidsiz olsam da, sizi sevirdim,
Kaş xoşbəxt eyləyə Allahım sizi.